# RZAYEV RÖVŞƏN ABDULLA OĞLU



15 oktyabr 1969-cu ildə Bakı şəhərinin Sahil qəsəbəsində anadan olmuşdur. 1986-cı ildə 253 saylı orta məktəbi bitirərək, Vladiqafqaz Ali Hərbi Komandirlər Məktəbinə daxil olmuşdur. 1991-ci ildə təhsilini başa vuraraq Orta Asiyaya və Qazaxıstana təyinat almış, daxili qoşunların tərkibində tağım komandiri kimi fəaliyyətə başlamışdır. 1992-ci ildə Bakıya qayıdaraq 6500 saylı mühafizə alayına komandir təyin edilmişdir. R.Rzayev Ağdam rayonunun Papravənd, Pircamal, Aranzəmin, Şelli, Naxçıvanik kəndləri uğrunda gedən döyüşlərdə qəhrəmanlıq nümayiş etdirmişdir. Cəsur komandir 1992-ci ilin iyun ayında Naxçıvanik kəndində gedən döyüşlərin birində ağır yaralanır. Lakin o, döyüş meydanını tərk etmir, mühasirəyə düşmüş neçə-neçə yaralı əsgəri xilas edir. O, bir müddət müalicə olunur. Göstərdiyi fədakarlığa görə 1993-cü ildə Ədliyyə Nazirliyinin hərbi hissəsinin qərargah rəisi təyin edilmişdir. 1994-cü ildə vaxtilə xidmət etdiyi alayın 4-cü taborunda qərargah rəisi olmuşdur. 1996-cı ildə Ədliyyə Nazirliyi Məhkəmə Qərarlarının Baş İdarəsinin mühafizə alayında qərargah rəisi vəzifəsinə təyin edilmişdir. Sonralar isə Qobustan həbsxanasında mühafizə bölüyünün komandiri kimi çalışmışdır. 8 yanvar 1999-cu ildə məhbus qiyamının yatırılmasında qəhrəmancasına həlak olmuşdur. Sahil qəsəbəsində dəfn edilmişdir. Ailəli idi. İki övladı var. Azərbaycan Respublikası Prezidentinin 12 yanvar 1999-cu il tarixli 73 saylı Fərmanı ilə kapitan Rzayev Rövşən Abdulla oğlu ölümündən sonra Azərbaycanın Milli Qəhrəmanı adına layiq görülmüşdür. Sahil qəsəbəsində adı verilən parkda büstü qoyulmuşdur.